*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 141-147*

https://doi.org/10.62837/2024.10.141

**QURBANLI AYTAC OKTAY QIZI**
***Naxçıvan Dövlət Universiteti***

# ƏDƏBİ DİL NORMALARININ MƏNİMSƏDİLMƏSİNDƏ, QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

## Xülasə

Azərbaycan dilinin qrammatik quruluşu olduqca möhkəmdir. Onun morfoloji quruluşunun əsasında möhkəm qanunlar dayanır: bütün isimlər eyni qayda ilə hallanır, hallanmayan isim yoxdur, bütün feillər eyni cür təsrif olunur, təsrif qaydasına tabe olmayan feil yoxdur. Dilin sintaktik quruluşu da zəngindir. Dil, tədricən və ardıcıl surətdə inkişaf edərək, təbiət və cəmiyyətin müxtəlif təsirlərindən insan beynində doğan fikirlərin ifadə və mübadiləsinin ən yetkin vasitəsi olur. Buna görə də dil həm fikirləri ifadə etmənin, həm də ifadə olunmuş fikirləri anlamanın vasitəsidir; dil – həm insanlar arasında ünsiyyət aləti, həm də bu ünsiyyəti möhkəmləndirmə, genişləndirmə vasitəsidir.

Məqalədə hər kəs üçün vacib olan dəbi dil normaları və onlardan istifadə qaydalarından söhbət açılmış, dil üsubi cəhətdən araşdırılmışdır. Burada ən çox dilin üslubu cəhətləri, ədəbi dil normalarını pozan səbəblər aşkara çıxarılmışdır.

**Açar sözlər:** üslub, fonetik, leksik, qrammatik normaların tədrisi,feil, isim

“Ana dili! Nə qədər rəfiq, nə qədər ali bir kəlmə, nə qədər möhtərəm, müqəddəs, nə qədər əzmli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqətini sənə o dildə bəyan edibdir, bir dil ki, sən hələ beşikdə ikən bir lay-lay şəklində öz ahını və lətafətini sənə eşitdirib, ürəyinin ən dərin guşəsində nəşr bağlayıbdır. Cism və ruhunun möhtac olduğu məvadi (qidanı) o dildə tələb edibsən. Bir dil ki, ibtida o dildə yaxşı-yamanı bilibsən, səni yaradanı tanıyıbsan. Haman dil ki, diyari-qürbətdə biganələr içinə düşəndə, ona həsrət qalırsan...” (N.Nərimanov).

Aforistik məzmunu ilə seçilən bu mətn nə qədər təsirli olsa da, ana dilinin dəyərini ifadə etmək üçün kifayət deyil. Çünki ana dili onun daşıyıcısı olan xalq, millət üçün ən qiymətli sərvətdir. Ana dili insanın milli varlığının vəsiqəsi, onun milli mənsubiyyətinin simvoludur. Azərbaycan dili dünyada yaşayan 50 milyondan artıq azərbaycanlının ümumi ünsiyyət vasitəsidir. Bu dil qədim dövrlərdən etibarən, yurdumuzun sakinləri olan azsaylı xalqların da ümumi ünsiyyətinə xidmət etmişdir. Vətənin bütövlüyü, azadlığı uğrunda mübarizə önəmli olduğu qədər, dilin saflığını qorumaq, onun inkişafına mane olan əngəlləri aradan qaldırmaq da ən vacib məsələlərdən hesab edilir. Bu məqsədlə aparılan mübarizələrdə şəhidlik məqamına

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 141-147*

yüksələnlər də olmuşdur. Yarım əsr bundan əvvəl Banqladeşdə ana dillərinin dövlət dili elan edilməsi uğrunda mübarizəyə qalxan doqquz gəncin intihar etmə hadisəsini insanlar hələ də unutmamışlar. Ana dili uğrunda özlərini ölümün ağuşuna atan benqalların fədakarlığı yarım əsrdən çoxdur ki, bütün dünyada danışılmaqdadır. Bu səbəbdən də, ana dili barədə fikirləşəndə, doğma dili uğrunda şəhid olmuş həmin gənclərin qəhrəmanlığı xatırlanır. Bəli, 21 fevralın "Beynəlxalq Ana Dili Günü" kimi qeyd edilməsi dünya üçün tarixi bir önəm daşımaqdadır. Azərbaycan dili dünyanın qədim dillərindən biridir. Keçmiş zamanlardan bu günə qədər bu dildə zəngin ədəbi abidələr yaradılmışdır. Yazılı ədəbiyyatımızın ilk nümunəsi sayılan "Kitabi-Dədə Qorqud", eləcə də çoxsaylı yazılı və şifahi ədəbiyyat nümunələri Azərbaycan dilində ərsəyə gəlmişdir. Tarixin ayrı-ayrı mərhələlərində imperialist-işğalçılıq siyasəti nəticəsində xalqımızın doğma dilində yaradılmış abidələri məhv edilməsə idi, indi bu dildə daha çox yazılı abidələr mövcud olardı "Azərbaycan dilinin qrammatik quruluşu olduqca möhkəmdir. Onun morfoloji quruluşunun əsasında möhkəm qanunlar dayanır: bütün isimlər eyni qayda ilə hallanır, hallanmayan isim yoxdur, bütün feillər eyni cür təsrif olunur, təsrif qaydasına tabe olmayan feil yoxdur. Dilin sintaktik quruluşu da zəngindir. Azərbaycan dili türk dili kimi xoş səslənən ahəngdar bir dildir. Onu dinləyən adam dilin ahəngdar, musiqili bir dil olduğunu o saat hiss edir" [3, s.7]. Qeyd olunduğu kimi, bu dildə digər türk dillərindən fərqli bir zənginlik, rəvanlıq duyulur. Spesifik estetik kaloriti, qrammatik quruluşunun və semantik struktrunun çoxcəhətliliyi ilə də seçilən Azərbaycan dili əcdadlarımızdan bizə qalan ən qiymətli mirasdır. Necə ki, görkəmli dövlət xadimi Şah İsmayıl Xətai üzünü gənclərə tutaraq demişdir: "Biz etdiyimiz səhvləri siz etməyin! Qardaş qanı tökməyin. Dilimizin bir kəlməsini başqa dillərə, torpağımızın bir parçasını belə düşmən əlinə verməyin. Onları qoruyun və gələcək nəsillərə əmanət edin". "Tariximizin bir çox dövr və mərhələləri kimi, iştirakçısı və şahidi olduğumuz XX yüzilliyin 90-cı və sonrakı illəri dövründə Azərbaycan dilinin vəziyyəti, bu dilin müxtəlif sahələrində gedən proseslərin araşdırılıb öyrənilməsi də böyük əhəmiyyət kəsb edir. Dil tariximizin araşdırılması ilə yanaşı, onun adının işlənmə tarixinin tədqiqi də, məhz həmin dövr tədqiqatlarının nəticəsində müəyyənləşdirilmişdir" [7, s.202]. Dil tariximizin araşdırılması ilə onun adının işlənilməsinin tədqiqi tarixinin eyni araşdırma obyekti olduğunu nəzərə alaraq, bəzi vacib məqamların xatırlanmasını məqsədəuyğun hesab edirik. Azərbaycan dili tarixən heç də həmişə bu adı daşımamışdır. Qədim dövrlərdən başlayaraq XX əsrin 30-cu illərinə qədər o, "türk dili" adı ilə tanınmışdır. XIX əsrdən Azərbaycan dilinə aid əsərlərdə, rəsmi dövlət sənədlərində və ayrı-ayrı şəxslərin məktub və xatirələrində Azərbaycan dili müxtəlif adlarla adlandırılmışdır: "türk dili", "türk-tatar dili", "türk-Azərbaycan dili", "tatar dili", "tatar-Azərbaycan dili", "Qafqaz-tatar ləhcəsi" və s.

Dil, tədricən və ardıcıl surətdə inkişaf edərək, təbiət və cəmiyyətin müxtəlif təsirlərindən insan beynində doğan fikirlərin ifadə və mübadiləsinin ən yetkin

vasitəsi olur. Buna görə də dil həm fikirləri ifadə etmənin, həm də ifadə olunmuş fikirləri anlamanın vasitəsidir; dil – həm insanlar arasında ünsiyyət aləti, həm də bu ünsiyyəti möhkəmləndirmə, genişləndirmə vasitsidir.

Bütün belə cəhətləri nəzərə aldıqda bir daha aydın olur ki, dil millətin varlığı üçün zəruri əlamətlərdən biridir.

Ümummillətə xidmət edən dil isə milli dil adlanır. Bütün millətlərin tarixindən məlumdur ki, milli dil millətin üzvləri üçün ümumi və millət üçün vahid dildir.

İstər orta məktəblərdə, istərsə də ali təhsil ocaqlarında mənimsədilməsi, mənimsənilməsi çətin olan bir neçə mövzu var: vurğu, orfoqrafiya və ədəbi dil normaları. Vurğu və orfoqrafiya haqqında xeyli məqalə və kitabçalar, lüğətlər buraxılıb. Yenə də o sahədə şagirdlər, abituriyentlər, əksər müəllimlər çatışmazlıq hiss edir və hər kəs "ya onlar- kitab, məqalə yazarlar" deyə, "ya da cəhənnəmə ki" deyirlər.

Bizə görə də onlar qismən gəlir məsələ olsa da, bu üslub məsələsi həqiqətən də gəlir məsələsidir. (Bu kino ki var....!) Bu üslub ki var, həqiqətən də dəryadı, ora girən ya batır, ya da bir təhər üzüb çıxır. Bu da doğrudur ki, bu barədə tanınmış dilçilər Ə.Dəmirçizadə, H.Həsənov, S.Həsənova, R.Məmmədov və başqaları çox yazıblar, çox deyiblər (biz onlardan artıq heçnə deyə bilmərik, ancaq bəzi məqamlara toxunmaq xeyirli olar), lakin hələ yolun o başına gedib çıxan yoxdu. Niyə? Çünki üslub dilçiliyin bir neçə sahəsi ilə bağlıdı. İnsanın orqanizması pozulur, ağrıyır. Bu qaraciyərdən, öddən, mədə şirəsindən, bağırsaqlardan, onurğa beynindən və s. ola bilər. Üslub da belədi, yəni üslub pozulubsa , ya morfoloji, ya sintaktik, ya leksik, ya ədəbi dil normaların pozulmasından yaranmağı sual altında qalır. Buna görə də ədəbi dil normalarını və onlarla bağlı, əlaqəli digər məsələləri öyrənmək vacibdi.

Bunu da vurğulamaq lazımdır ki, tədris proqramlarında, tutaq ki, fel bəhsinə, isimə və digər mövzulara 10-20 saat vaxt verilirsə, üslublar, ədəbi dil və normalarına 1-2 saat vaxt verilir. Bəzi müəllimlər, yaxud proqram tərtib edənlər iddia edirlər ki, ədəbi dil normaları, üslub məsələsi o mövzuların içində əriməlidir. Halbuki biz oxuduğumuz dövrdə üslubiyyat adlı fənn keçirilirdi. İndi isə bu məsələlər digər mövzuların içində "əridiyinə" görə bu mövzulara az saat verilir. Buna görə də bu sahədə abituriyentlər, tələbələr "axsayırlar".

Vaxt itirmədən ədəbi dil normalarını, qısa da olsa şərh etməyi və onların necə mənimsədilməsi yollarını qeyd etməyi vacib saydıq. Ədəbi dil normaları müxtəlif mənbələrdə fərqli bölgülərlə verilib, lakin biz TQDK-nın tələbələri səhifəsində bölgü verməyi lazım bildik.

Ədəbi dil normaları əsasən bunlardır:

1. Fonetik norma
2. Leksik və ya leksik-semantik norma
3. Qrammatik norma.

Qeyd edək ki, əksər vaxtlar orfoqrafik və orfoepik normalara da çox rast gəlinir. Lakin onu bilmək lazımdır ki, orfoqrafik və orfoepik normalar əsasən fonetik normanın tərkib hissəsi olmaqla bərabər, həm də qrammatik normanın bir parametridir. Bu haqda aşağıda daha geniş söhbət açılacaq.

1.Fonetik norma nədir? Fonetik norma iki yerə ayrılır: a) orfoqrafik norma b) orfoepik norma

Fonetik norma sözü düzgün yazmağı və düzgün tələffüz etməyi tələb edir. Sözün düzgün yazılış qaydası orfoqrafik, düzgün tələffüz qaydası orfoepik norma adlanır. Bunların hər ikisinə riayət etmədikcə fonetik norma pozulur. Nümunələr:

| **Belə yazılır** | **Belə deyilir** |
|---|---|
| avtomat | aftomat |
| asfalt | asvalt |
| ailə | ayilə |
| gəlirlər | gəlillər |
| etibar | ehtibar |
| sərbəst | sərbəs |
| qızlar | qızdar və s. |

Fonetik normaya assimiliyasiya, dissimilyasiya, səsdüşümü, səsartımı, habelə karlaşma və cingiltiləşmə hadisələri də daxildir. Bir sözlə fonetika bəhsində öyrəndiklərinə düzgün riayət etmək fonetik normanın düzgünlüyüdür, tələb olunan qaydalara düzgün riayət etməmək fonetik normanın pozulmasıdır.

Leksik norma fonetik normadan daha geniş və əhatəlidir. Burada sözlərin mənalarındakı düzgün və yerli-yerində işlədilməsi tələb olunur. Leksik-semantik normaya düzgün əməl edilməsi, yəni səhvə yol verilməməsi üçün aşağıdakıları nəzərə almaq lazımdır:

1. Hər bir şəxs, xüsusən ziyalı olan şəxs, yaxud, ali təhsil almaq istəyənlər hər bir sözün lüğəvi mənasına bələd olmalıdır.

2. Söz düzgün işlədilməlidir, yəni sözün məna tutumu nəzərə alınmalı, dəqiq , yerli –yerində işlədilməlidir. Məsələn, "Dahi Azərbaycan şairi N.Gəncəvi dünya ədəbiyyatı tarixində xüsusi mövqeyə malik olan sənətkardır" - cümləsində dahi sözünün yerinə böyük, yaxud, uca Azərbaycan şairi yazsaq, yaxud desək, səhvdir. Və yaxud, xüsusi sözünün yerinə "əlahiddə və ayrıca" sözlərini işlətsək səhv olar.

Yaxud, "qarpız göy idi, hələ qırmaq olmazdı " - cümləsi leksik norma baxımından səhvdir. Bu cümlədə "göy" yerinə "kal" sözü işlənsə düzgün olar, leksik norma pozulmaz. Və yaxud, "onun addımlarında da bir qürur, vüqar var idi" - cümləsində "addım" sözü yerinə düşməyib. "Addım" yerinə "yeriş" sözü işlənsə, leksik norma pozulmaz.

3. Artıq, yersiz sözlərdən istifadə olunmamalıdır. Məsələn, "qonaqlar gələndə darvaza qapısı, otağın qapıları, pəncərənin tağları, pəncərənin pərdəsi açıq idi" –

cümləsində artıq , yersiz söz və söz birləşmələri işlənib. Bu cümlə belə işlənsəydi normaya əməl edilmiş olardı: “Qonaqlar gələndə darvazanın qapısı açıq idi”.

4. Cümlədə təkrarçılığa yol verilməməlidir. (Sinonimlərdən yerli-yerində işlətmək təkrarçılıq sayılmır) Məsələn, “yayın ortalarında babamgilin bağçasında, bağçasındakı ağacların dibində oturub istirahət edirdik” - cümləsi həm leksik, həmdə üslubu xətadı. Bu cümlə belə yazılsa, yaxud deyilsə daha düzgün olardı. “Yayda, iyul ayının ortalarında biz babamgilin bağçasında , ağacların kölgəsində dincəlirdik”.

**Qrammatik norma**

Qrammatik norma morfoloji və sintaktik normaları əhatə edir. Bu normalar aşağıdakılardır:

1. Cümlədə söz sırası pozulmamalıdır, yəni xəbər sonda, təyin mübtəda, tamamlıq, ismi xəbər, yer zərfliklərindən əvvəl, kəmiyyət, tərzi-hərəkət zərflikləri feili xəbərdən əvvəl gəlməlidi. Belə olmasa, qrammatik norma pozular. Düzgün söz sırası belədir. Məsələn;

1. Sürücü Həsən, dolu yük maşınını iri bir ağacın kölgəsində yavaşca saxladı və orada düz iki saat dincəldi.

2. Əvvəlində müəyyən miqdar sayları olan isimlər cəmlənməz. Cəmlənsə səhvdir. Məsələn; beş kitab, üç otaq, iyirmi tələbə və s.

3. İsimlər, şəkilçilər düzgün sıralanmalıdır: kök (sadə, düzəltmə, mürəkkəb)+cəm+ mənsubiyyət+hal+şəxs(xəbərlik): kitablarımızdadır, yaxud, Musa kişi bizim fəal balıqçılarımızdandır və s. İstisnalar yox deyil: bacımgildədir, evdəkilərdən və s.

4. Fellərdə şəkilçilərin düzgün sıralanması vacibdir: qoparılmamışdır, görünməməliydik və s.

Əsas ədəbi dil normalarından əlavə onomastik, frazeoloji, dervitoloji üslubi normalar da vardır ki, bunlar yuxarıdakı üç normanın tərkib hissələridir. Ancaq burada maraqlı bir məqama diqqət yetirmək lazımdır. Belə ki, axırda saydığımız ədəbi dil normaları da üslubi normalar sırasındadır. Bəs necə olur ki, üslubi norma pozulur? Yəni üslubu nə pozur?

- Leksik norma kobud şəkildə pozulursa, üsluba xələl gətirir.
- Qrammatik şəkilçi düşdükdə üslub pozulur. Bu üslubi-qrammatik norma adlanır.
- Yersiz təkrarlar, hər hansı bir üslub normalarına əməl edilməməsi, ədəbi dilimizə uyğun olmayan sözlərdən, dialekt və ya kobud sözlərdən yersiz işlədilməsi və digər səbəblər üslub normalarının pozulmasına gətirib çıxarır.

Fikrimizi ulu öndər Heydər Əliyevin gənclərə ünvanladığı müdrik məzmunlu ibrətamiz nəsihəti ilə yekunlaşdırırıq: “Harada yaşamağınızdan asılı olmayaraq, vətəndaşı olduğunuz ölkənin qanunlarına hörmətlə yanaşın. Eyni zamanda, azərbaycanlı adını uca tutun. Dilimizin saflığını qoruyun. Mənəvi dəyərlərimizi, mədəniyyətimizi təbliğ edin. Azərbaycana layiq övladlar yetişdirin” [9, s.42].

Deməli, ədəbi dil normalarına düzgün əməl etmək dilimizin saflığını, zənginliyini, səlisliyini, anlaşıqlığını üzə çıxaran amillərdəndir. Hər bir kəs ədəbi dil normalarına düzgün əməl etsə, dilimizin sadəliyinə, anlaşıqlı olmasına xidmət etmiş olar.

Xalq şairi M.Araz yazırdı:

Bu sözdü, qəmdi, qəhərdi,
Sonu işıqdı səhərdi.
Atdı, yüyəndi, yəhərdi,
Sözlə zarafat eləmə!

Sözün sözü pozmağı var,
Qayalara yazmağı var.
Dəvə kimi qızmağı var,
Sözlə zarafat eləmə!

**Ədəbiyyat**

1. A.Qurbanov. Müasir Azərbaycan dili. Bakı, 2003
2. A.Məmmədzadə. Müasir Azərbaycan ədəbi dilinin üslublar sistemi və məcazlar. Bakı, 2019
3. Axundov A. Dil və mədəniyyət. Bakı, Yazıçı. 189 s. 1992
4. Azərbaycan dili və nitq mədəniyyəti, ali məktəb tələbələri üçün dərs vəsaiti, Bakı 2015
5. Azərbaycan dili. Abituriyentlər üçün köməkçi vəsait, Bakı, Elm, 2011
6. Əhmədli N. Jurnalistin nitq mədəniyyətinin əsasları. Bakı, Elm və təhsil. 279 s., 2014
7. Kazımov Q. (2017). Azərbaycan dilinin tarixi. Bakı, TEAS PRESS. 678 s.
8. N.Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı: "Elm və təhsil", 2013
9. Sadıqlı A. (2011). Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı, Mütərcim. 177 s.

**KURBANLI AYTADJ OKTAY**

## HOW TO ADOPT LITERARY LANGUAGE STANDARDS, CHALLENGES AHEAD AND HOW TO ADDRESS THEM

## SUMMARY

The grammatical structure of Azerbaijani is very strong. Based on its morphological structure, solid laws are based on the same rules: all names are treated in the same order, there is no name that is not used, all verbs are defined in the same way, and there is no verb that is not subject to the rules of procedure. The synthetic structure of the language is also rich. Language, gradually and consistently evolves, becoming the most mature means of expressing and communicating ideas born in the human brain from different influences of nature and society. Therefore, language is a

means of expressing ideas and understanding them; Language is a tool for communication and for strengthening and expanding communication.

The article discussed the standards and methods of use of literary languages that are important to everyone and examined them in a linguistic way. It reveals the most common language styles and reasons for violating literary standards.

**Keywords: style, phonetic, linguistic, grammatical standards, verb, noun**

**КУРБАНЛЫ АЙТАДЖ ОКТАЙ**

## КАК ПРИНЯТЬ СТАНДАРТЫ ЛИТЕРАТУРНОГО ЯЗЫКА, ПРЕДСТОЯЩИЕ ПРОБЛЕМЫ И СПОСОБЫ ИХ РЕШЕНИЯ
## СВОДКА СВОДКА

Грамматический строй азербайджанского языка очень сильный. Исходя из своей морфологической структуры, твердые законы основаны на тех же правилах: все имена обрабатываются в одном порядке, нет имени, которое не используется, все глаголы определяются одинаково, и нет глагола, на который не распространяются правила процедуры. Синтетическая структура языка также богата. Язык, постепенно и последовательно развивается, становясь наиболее зрелым средством выражения и передачи идей, рожденных в человеческом мозгу под различными воздействиями природы и общества. Таким образом, язык является средством выражения идей и их понимания; Язык – это инструмент для общения, а также для укрепления и расширения общения.

В статье рассматриваются стандарты и методы использования литературных языков, которые важны для каждого, и рассматриваются их в лингвистическом ключе. В ней выявлены наиболее распространенные стили языка и причины нарушения литературных стандартов.

**Ключевые слова: стиль, фонетика, лингвистика, грамматические нормы, глагол, существительное**

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: Dosent Arifə Əziz qızı Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur**